

***Şəddat CƏFƏROV,***
***iqtisadiyyat elmləri üzrə fəlsəfə doktoru,***
***Azərbaycan və Rusiya Yazıçılar və Jurnalistlər Birliklərinin üzvü,***
***Beynəlxalq Yazarlar Birliyinin üzvü***

# “ÇİNARIM, BULAĞIM, YOLUM...”

## *“Yaddaş Yanğısı” poeması üzərində düşüncələr*

**IV hissə**

Əli Rza Xələfli “Yaddaş yanğısı” poemasında çox sevdiyi obrazlara təkrar-təkrar müraciət edir. Poemanın ayrı-ayrı hissələrində də çox böyük sevgi ilə təkrar olunan obrazlar sırasında çinar, bulaq... daha çox yer tutur. Hiss olunur ki, müəllifin uşaqlıq və gənclik xatirələri evlərinin qarşısında olan çinarla, bu çinarın kölgəsindən çağlayan durnagözlü bulaqla daha çox bağlıdır. Maraqlıdır ki, əsərin qəhrəmanının gənclik xatirələri içərisində onun sevgi notlarını yazıya gətirən duyğulanmalar da həssaslıqla işlənib.

Ümumiyyətlə, sevgi duruluğun, səmimiyyətin, saflığın təcəssümüdür. Əsərin qəhrəmanının gənclik sevgisinin bulaqla, çinarla bağlanışı əslində bu sevginin əbədiyaşarlıq gücündən xəbər verir. Yəni əsərin qəhrəmanı inanır ki, bulaq qurumaz, çinar əbədi yaşıl qalar. Amma necə deyərlər, sən saydığını say.

Erməni vandalları kəndi talan edib dağıdırlar, müşələri yandırırlar, şahanə görkəmli ağaclar doğranır. Beləliklə, təbiət vandallığın təsiri altında qəddarcasına dəyişdirilir. Bununla da bulağa da, elə çinarın özünə də zərbə dəyir. Çox böyük yanğı ilə göyə çəkilmiş gözəlliyin acı mənzərəsi əsər boyu bizim də xəyalımızda canlanan mənzərələrə baxan gözlərimizi göynədir.

Bəs bu tipli yazılar nə üçün vacibdir? Ona görə ki, yağının, düşmənin xalqımıza vurduğu yaraların mahiyyətini yaddaşda qoruyub saxlamaq üçün hər bir sənətkar öz dövrünə, zamanına münasibət bildirməyə borcludur. Əgər Qarabağın talan olunmuş mənzərələrini bu günün sənətkarları yazmasa, reallıq tarixdə necə yaşaya bilər?

Ancaq mən başqa səbəblər də görürəm. Sənətkar həm də ona görə yazmalıdır ki, Qarabağın işğalından sonra dünyaya gəlib böyüyən nəsil (otuz il) axı Qarabağı görməyib. Onlara vaxtı ilə Qarabağın necə olduğunu, onun təbiətinin ecazkarlığını, gözəlliklərinin sonsuzluğunu çatdırmaq üçün mütləq o yerləri yaxşı bilən, tarixindən xəbərdar olan müəlliflərin yazısı doğma yerlərə qayıdış üçün ən yaxşı körpü ola bilər. Bu mənada Xələflinin “Yaddaş yanğısı” poemasının xüsusi əhəmiyyəti olduğunu təsəvvür etmək heç də çətin deyil.

Nə qədər ricətli düşüncələrə yer versək də, poemanın lirik ovqatı bizi özünə tərəf çəkir. Sanki əsər canlı olaraq xüsusi bir oyanışla öz oxucusunu çağırır. Haracan getdiyini, təsvirlər boyu nələri gördüyünü ona xatırladır. Üstəlik də sanki onun diqqətinə çatdırır ki, hələ görməli olduğun mənzərələr çoxdur, bilməli olduğun elə mətləblər var ki, bunun sirlərini, dərinliklərini sən elə bu əsərdən öyrənə bilərsən. Ona görə də hara getsən, ədəbi-bədii ovqatın açdığı cığırla yaddaşın yoluna dönməlisən.

Yaddaş yolu... bu elə yoldur ki, onun bələdçisi ancaq insanın özü ola bilər. İnsan hansı yaşda olur olsun, nəsə onun yaddaşında ilişib qalan bir motiv olur. Həmin motivə güvənərək keçmiş kələf kimi çözülür, bir-biri ilə bağlı olan hadisələr yada düşür, əhvalatlar xatırlanır. Az qala adını unutmaqda olduğun yerlər, kimliyini yada sala bilmədiyin insanlar canlanır, gözlərinin önünə gəlir və bu dönüşlər istər-istəməz hər bir müəllifin və oxucunun ruhunu səfərbər edir. Onu öz cazibəsinə alır, varlığına çəkir. Sanki söz canlanaraq deyir ki, gəl mənimlə get, gör, nələri görərsən.

Poemanın lirik ovqatla işlənmiş ən gözəl lövhələrindən birinə diqqət edək:

Günüm də əyilib, vaxt da daralıb,
Axşam küləyinin sazağı gəlir;
Daha neyləyim ki, baxt da qaralıb,
Yaşımın sonuncu uzağı gəlir.

Hanı hay-küylü kənd... mən necə yazım,
Ümiddə saralıb, dildə solanı;
Saralmış yarpaqdır burda payızım,
Sözüm salamlayır olub-qalanı.

Müəllifin yaradıcılığından qızıl-qırmızı xətlə keçən Şirvan bulağı obrazını onun ən müxtəlif əsərlərində necə sevgi ilə tərənnüm olunduğunu dəfələrlə müşahidə etmişik. Kənddə bulaq başı ən ictimai bir yerdir. İnsanlar burada doğmalıqla görüşür. Bir-birindən hal-əhval tutur, yaşayışlarından, güzəranlarından danışır. Biri digərindən çətinliyə görə kömək istəyir, yardım alır. Bu mənada bulaq özü müqəddəsdir. Sanki bir ziyarətgahdır. Hər kəs bulaq başında doğmalarından aldığı təəssüratla həyata, sabaha daha çox inamla silahlanır. Əsərin lirik qəhrəmanı da bulaqla hal-əhvallaşmanı yaddaşındakı həmin duyğularla başlayır. Yəni nə qədər gec də olsa, çətin də olsa, doğma bulağına “gəlmişəm” deyir və çox təəssüflə bildirir ki, o nəğməli bulağın səsi batıb, ünü yatıb. Vandalların təbiətə vurdğu ziyan beləcə bulağın da səsini batırıb. Biz həzin bir duyğu ilə bulağa oxunan nəğməni dinləyirik:

Axır ki, gəlmişəm, Şirvan bulağı,
Niyə nəğmələrin qeybə çəkilib?
İndi hansı arxdan alım sorağı,
Yerində bu ölü sükut əkilib.

Bu bulaq başında şux gözəllərin,
Şaqraq gülüşləri, dilləri hanı?!
Açılan dan üzü gülən səhərin,
Salamına gələn elləri hanı?!

Səs ver, bulaq başı, ürək deyənə,
O gənci, o qızı ovut bir az da.
Həsrətin dağını aşaram yenə.
Qovuşar ömrümüz yenə bu yazda.

Bu lövhə o qədər emosional və lirik duyğular üzərində köklənib ki, hətta araya girib nəyisə şərh etməyə belə lüzum qalmır. Müəllif çox böyük hüzn içərisində ilk sevgisinin şahidi olan qurumuş bulağa müraciətlə daha gəlmişəm deyir. Amma elə bil ki, bu bulaq da əvvəlki doğmalıqda deyil, o da küskündür, o da incikdir. Sanki cavab vermək istəmir.

Əsərin lirik qəhrəmanı dönüb doğma yerlərə baxır. Bəs hanı həmin o hay-küylü, insanı valeh edən, çal-çağırlı oymaqlar, şənlik məclisləri, novruzlu günlər... bütün bunların heç birisindən xəbər-ətər yoxdur. Çünki hər bir çağırış insanla bağlıdır, insanın mənəvi mühiti ilə bağlıdır. Əgər insanın özü yoxdursa, onda yerlər-yurdlar da əbədi olaraq sükuta qərq olmuş olur. Bir vaxt Səməd Vurğun Muğan çölündən keçərkən qəlbinə müraciətlə deyirdi ki, sükuta bürünmüş qəlbimlə keçirəm yolları. Elə bil ki, indi xarabazarlığa bürünmüş, insanları köçüb getmiş, talan olunmuş yurdların sükutlu mənzərəsini bütün acılığı ilə müəllif sözə yığır və gözlərimizin önünə gətirir.

Ümumiyyətlə, insanın faciənə mənzərəyə baxması asan deyil. Hər kəs ağrılı, dəhşətli mənzərəni gözlərinin önündə çox böyük ağrı ilə müşahidə edir, görür. Bu da onun varlığında çox ağrılı duyğular oyadır. İndi neyləmək olar?

Zaman ötüb, vaxt keçib. Əsərin lirik qəhrəmanı 40 yaşında qoyub getdiyi yerlərə təzədən qayıdıb. İndi onun saçları ağarıb, heç gözləri də bəlkə həmin parlaqlıqla yanmır. Amma yaddaşı çox oyaqdır. Yaddaş ona xatırladır ki, bu yerlər, bu bulaq başı onun sevdiyi qızla ilk görüş yeridir və sanki çox böyük hüznlü bir duyğu ilə həmin gənc təzədən gözlərimizin önündə canlanır və o öz sevgilsini xatirəsi ilə, yaddaşı ilə axtarır.

Maraqlıdır ki, yazı, poema elə bir canlılıqla işlənib ki, sanki gözlərimiz kiminsə gələcəyinə inanır. Deyəsən, həmin gənclər, öz gəncliklərini bu bulaq başında qoyub getmiş olan gənclər indi hansısa tərəfdən çıxacaq və sonsuz sevgi ilə bir-birinə doğru qaçacaqlar.

Müəllif bu mənzərəni gözlərimiz önündə canlandırır, ancaq tez də xatırladır ki, indi həyat çox dəyişib. Nə yaş o yaşdır, nə də zaman o zaman.

Yuxarıda qeyd etdiyimiz kimi lirik ovqat o qədər güclüdür ki, oxucunun poetik lövhədən ala biləcəyi zövqün qarşısını kəsməmək tələbi öz şərtlərini irəli sürür. Lövhəni olduğu kimi oxucuya çatdırmaq istəyi tələb kimi qarşıda durur. Qoy oxucu özü görsün, o gülərgözlü qızı, odlu baxışlı gənci, çağlayan bulağı, yanmış çinarı təzədən gözlərinin önündə canlandırsın. Budaqlar üstündə ötən qırqovulun nəğməsindən onun nə dediyini oxucu özü başa düşsün:

Yaddaş dumanından boylanan gözüm,
Gözləyir o qızı, indi gələcək,
Ey ürək, odunda közərir közüm,
Sanma ki, təzədən bəxtin güləcək.

Yağı yağmaladı ömür payımı,
İllərim həsrəti bələdi getdi.
Burda ucaltdığım bəxt sarayımı,
Qəmlər ömür-ömür ələdi getdi.

O qızın gülüşü yaddaş güldü,
Uçuram illərin işıq üzünə.
Yanan xatirələr xəyal külüdü,
Küləklər pay verir onun sözünə.

Kol üstə qırqovul öz quş dilində,
Salamla ayırdı xəyaldan məni,
Dəvə dərdlərimin donqar belində,
Adlayıb keçirəm çölü, çəməni.

Axı qeyd etdik ki, müəllifin ən sevimli obrazlarından biri də çinardır. Onu da deyim ki, Ə.R.Xələfli bu poemadan çox-çox əvvəl “Bir çinar hekayəti” adlı poema da yazıb. Həmin poemada ruhunun qürur rəmzi olan Çinara çox böyük sevgi ilə müraciət edir. Onunla bağlı xatirələri yada salır. Məlum olur ki, o çinarın əkilməsinin də özünəxas bir tarixi var. Bu tarix mistik bir inancla bağlıdır. Qədim düşüncəyə görə yeni uşaq doğulanda kəndin, elatın, obanın, doğmaların arasından bir müdrik uzunömürlü bir ağac əkir. Çox vaxt həmin ağac müqəddəslik kultuna çevrilir. İnsanlar həmin ağacı qoruyurlar, kəsmirlər, inanırlar ki, bu ağac kimin adına əkilibsə, həmin şəxs çox müdrik olacaq, aqil olacaq, insanlara düzgün yol göstərəcək, ümidsizlərə ümid bəxş edəcək. Bu barədə müəllif hətta “Anamın nağılı” adlı poemasında da yazıb. Kəndə gələn bir şaman (baxıcı) anasının qucağındakı uşağa baxıb onun böyük gələcəyindən xəbər verir. Ən qəribəsi də odur ki, uşağın çoxlu zavala da rast gələcəyini gizlətmir, onu da deyir. Müəllif ayrı-ayrı duyğulanmalarında məhz bu motivləri xatırladır. Qarabağ faciəsinin həmin şamanın dediyi öncəgörmənin həqiqətə çevrilməsi kimi başa düşür.

Beləcə biz Xələflinin həyatı ilə bağlı olan çinarın hekayəsinə bir də “Yaddaş yanğısı”nda rast gəlirik:

Başına dolanım yanan çinarın,
Adına yaşımın çağı əkilib;
Başına qarğalar qonan çinarım,
Qürurun, vüqarın yoxa çəkilib.

Ürəklə göyərib, dildə bitənsən,
Ay mənim həsrətli çinar qardaşım;
Sözümə ocaqsan, pirsən, vətənsən,
Qəlbimin ən dərin sirri, sirdaşım.

İllərdir qəm yeyib, dərdini içən,
Gövdəni oxşayım, boyunu sevim;
Uzun ayrılıqdan, həsrətdən keçən,
Vüsalını sevim, toyunu sevim.

Çinarın otuz illik ayrılıqdan sonrakı mənzərəsi ürək göynədəndir, qəlb dağlayandır. Doğrudan da, eerməni vandallarının cinayətləri bütün beynəlxalq müstəvidə olan qanunlarla bağışlanan deyil. Onlar təbiət abidəsi olan çinara qarşı necə qəddar olublar. Çinarın bir tərəfi yanıb, kösəvə dönüb. Sanki çinar doğma insanları görəndə titrəyən yarpaqları ilə onları salamlayır, onlarla səssiz-səssiz danışır, öz duyğularını bölüşür. Ən başlıcası, çəkdiyi həsrətləri çox böyük yanğı ilə xatırladır. Asan deyil bu cür acınacaqlı mənzərələri təsəvvür etmək.

Əsərin lirik qəhrəmanı burada çinarla müraciətlə onun daha dözümlü, daha təpərli olduğunu bildirir. Çünki insanlar bu yeri tərk etmiş olsalar da, bu çinar sanki torpağa keşikçi durub. Yağı düşmən onu yandırıb yox etmək istəsə də, nail ola bilməyib. Bağrında yanıq yerlərini saxlayan çinar yenə də əzəmətlə öz görkəmini qorumaqdadır.

Əsərin lirik qəhrəmanı çinara elə duyğu ilə müraciət edir ki, sanki onunla ata bir, ana bir qardaşdır. Özü elə bu çinarın bağrından qopub, bu çinardan yaranıb. Bu yerdə onu da qeyd etmək yerinə düşər ki, belə bədii lövhələr insan və təbiət arasında qırılmazlıq əlaqələrinin qorunması üçün ölçüyə gəlməz təsirə malikdir. Müəllif “çinar qardaşım” deyərək ondan nələri xahiş edir:

Ay çinar qardaşım, keşikçi durub,
Bu yerə, bu yurda pənah olmusan;
İllərdir ümidlər sarayı qurub,
Açılan dan üzü, sabah olmusan.

Ay çinar qardaşım, bir xahişim var,
Yön ver, evimizin dərdini görüm;
Görüm danışırmı uçuq daş-divar?
Şəhid divarların mərdini görüm.

Davamı 11-ci səhifədə

Əvvəli 10-cu səhifədə

# "ÇİNARIM, BULAĞIM, YOLUM..."

Saralmış yarpaqlar pıçıltılarla,
Könlümü oxşayır, "yeri, get" deyir;
Divarlar döyüşüb yağışla, qarla,
Çinar istəyimə "yeri, yet" deyir.

Deməк, yaddaş sahibi çinarın böyüklüyü qarşısında təzim edir, ondan icazə istəyir ki, çinar yol versin, onu doğulub-böyüdüyü evin xarabalıqlarına baxmaq üçün bir neçə addım atmağa təhrik etsin. Əlbəttə, asan deyil, bu son addımları əsərin qəhrəmanı sanki edama gedirmiş kimi irəliləyir. Elə böyük ağrı ilə, elə böyük hüznlə keçir ki, cəngəlliklər arası cığırlar sanki incik olduğuna görə onu irəliyə buraxmaq istəmir.

Amma hər halda yaddaş sahibinin qəlbindəki yurd yangısı onu özünə çəkir. Onun yaddaşında uzaq keçmişdə qalmış əhvalatları oyadır, acılı-şirinli xatirələr göz önünə gəlir. İstər-istəməz həyat öz acılı və şirinli tərəfləri ilə qəlbimizdə maraqlı düşüncələr oyadır. Əgər belə deməк mümkünsə, biz bir daha inanırıq ki, həyat bütün acılıqları ilə şirindir, yaşarıdır. Çünki ən azı bu acılıqların içərisində hansısa bir şirin xatirə var. O şirin xatirəni görmək, duymaq bizim varlığımızda enerji mənbəyinə çevrilir.

Çox vaxt xatirələr artıq keçmişdə qalmış kinləri, ədavətləri də yaddaşa gətirir. Müəyyən inciklikləр də yaddaşda oyanır. Amma qəribədir ki, bu artıq əvvəlki qərəz, kin deyil. Bunun özü də bir xatirədir. Və insan həmin olayların özünü də şirin xatirə kimi yaddaşa gətirir. Çox istəyir ki, həmin kinlərin o tərəfində qalmış olan insanları təzədən görsün. Onları qucaqlasın, bağrına bassın, əzizləsin və desin ki, o dava-dalaşlar da, incikliklər də indi ona çox əzizdir, elə o əhvalatların özləri də insanları bir-birinə bağlayan əlaqələrə çevrilib, özü də qırılmaz əlaqələrə.

Beləliklə, yaddaş sahibi çinarla doğma yerin, yurdun arasındakı o iyirmi addımlıq məsafəni çətin də olsa , keçir. Bir gözü çinara baxsa da, bir gözü xaraba qalmış yurd yerinə baxır.

Azərbaycan xalqının tarixi taleyində Qarabağın işğalı yüz illər boyu yaddan çıxmayacaq hadisə kimi qalacaq. Ən başlıcası, bu işğalın özü tarixi bir dərs kimi unudulmayacaq. Zaman-zaman erməni vandallarının yeni təhlükələr törədə biləcəyi fikri də heç vaxt düşüncədən silinməyəcək.

Biz sonsuz ağrı, mənəvi iztirabla xaraba qalmış yurdun önündə dayanıb əzəmətli ata-baba evinin necə xarabazrlığa çevrilməsinə baxmaq kimsəyə asan gəlməsin. Elə buna görə də müəllif deyir ki, bir neçə addımlıq məsafəni yeriyib keçmək onun üçün çox çətindir.

Baxıram, bu çinar, bu da evimiz,
İyirmi addımlıq yol var arada;
Sızlayıb torpaqda, suda evimiz,
Sızlayıb evimiz dərddə, yarada.

Yeriyə bilmirəm bu azca yolu,
Sanki daş asılıb ayaqlarımdan;
Babamdan əmanət bu qoca yolu,
Kəsib qaytarıram can bazarından.

Mən necə yeriyim, necə çatım bəs,
Qalmayan divarın bir daş üstünə;
Ayrılıq odunda yanmadım əbəs,
Bir istək gətirdim yaddaş üstünə.

Əlbəttə, çətindir. Bir vaxt istiliyinə, hərarətinə sığındığın divarlar indi xəyal qırığıdır. Və ən başlıcası, olmayan divarlarla danışmağın özü də çətindir. Amma hər halda sükutla olsa, olmayan divarlarla danışmaq, sən demə, mümkün imiş. Bu səssiz dialoq, bu sözsüz danışıqlar sanki əsərin qəhrəmanının ittihamı ilə başlayır. Onun indiyə qədər harada olduğunu, niyə otuz il ərzində yurda qayıtmadığını olmayan divarlar hüznlü görkəmləri ilə yaddaş sahibindən soruşurlar. Yəqin ki, yaşın verdiyi imkandan və ən başlıcası, yaddaşın açdığı cığırlardan keçən müəllif çətin də olsa, bu suallara cavab verməк iqtidarındadır. Yəqin ki, öz cavablarında belə bir motivə üstünlük verəcək ki, düşmən qəvi olub. Dünyada ədalətin tərəfində duran olmayıb. Güclülər həqiqətləri öz bildikləri kimi şərh edirlər. Belə bir şəraitdə əlbəttə, vəfalı olmaq da, sədaqətli olmaq da çox çətindir. Amma ən başlıcası, aradan otuz illik vaxt keçsə də, zaman yaddaş sahibinin düşüncələrini qaralaya bilməyib, başqa sözlə, yaddaşını poza bilməyib. İndi elə yaddaşın gücü ilə bu yol keçilir. Əslində onun özünü də bu yurda qaytaran elə yaddaşdır. Yəni daha soyuq divarların, xaraba yurdun "haradasan" sualına elə səssiz və sükutla verilən cavab da həqiqəti diktə edir.

Səssiz sükut ilə deyər "hardasan",
Qınayar divarlar, bu daşlar məni;
Ay yurdum, bilirəm, yoxda, vardasan,
Boğar öz içimdə qan-yaşlar məni.

İllər ayrısıyıq, sən məni qına,
Axı üzüm yoxdur daşıma çəkim;
Sən mənim eşqimi gəl bir də sına,
İzin ver dərdini başıma çəkim.

Çəkib varlığımdan əkirəm söz-söz,
Sirrimi danışır yaddaş toxumu;
Qayalar üstündə göyərər göz-göz,
Bitirər nəsillər bu daş toxumu.

Axır ki, ayrılıqlar araya sədd çəkə bilməyib. Doğmalar bir-birinə doğru can atıblar. Yurd yerləri yaddaşla, xatirə ilə uzaq yolları keçib yaddaş sahibinin varlığına, mənəviyyatına daxil olub, onu ilkinliyə çağırıb, keçmişə səsləyib, qayıdışa yönəldib. Elə bu səbəbdən də yaddaş sahibi həmin çağırışla az qala undulmaqda, dumana bürünməkdə olan yollara təzədən dönüb. Yaddaşı ilə gəlib, xatirələri ilə gəlib. Qayıdıb gəlib ki, dünyanın ikiüzlü siyasətinin mahiyyətinin necə çürük olduğunu bu doğma yerlərə təzədən danışsın. Əsas odur ki, haqsızlar, ədalətsizlər məğlub oldular, həqiqətlər qalib gəldi. İnsan mənəviyyatının sağlam tərəfi öz gücünü göstərə bildi.

Müəllif ədəbi qəhrəmanın dili ilə qeyd edir ki, yaddaşında olanları bir toxum kimi bu yurda əkir. Şübhəsiz, əkilən dən sağlamdırsa, o bitəcək. Burada nəzərdə tutulan məna budur ki, müəllif "Yaddaş yanğısı" əsəri ilə oxucuların təbiətini həqiqətlə tənzimləmək üçün bildiklərini yaddaşa əkir.

Əlbəttə, bir həqiqət də var, doğma yerləri görmək nə qədər təskinlik olsa da, qoyub getdiyini abad yurdun xarabazarlıq görkəmi yaddaş sahibinin varlığında dəhşətli bir əzaba, göynəmli yaraya çevrilir.

Qəlbimin qarası, yarası bitməz,
Min ada, şöhrətə çatsam da yenə;
Ayrılıq ağrısı çəkilməz, getməz,
Həsrəti çiynimdən atsam da yenə.

Qayıtmaz ömrümə itən gəncliyim,
Həsrətlər, qovğalar qərq etdi onu;
Ağrılar, acılar yeyən dincliyim,
Bir tale qisməti, bir ömrün sonu.

Xaraba divarlar, uçuq divarlar,
Mənə tənə ilə belə baxmayın;
Daha soruşmayın... keçib, hər nə var,
Məni qınaqlara çəkib yaxmayın.

***

Amma poemanın çox maraqlı bir məqamı var ki, biz sıranı gözləmədən onu qabağa çəkmək istəyirik. Bu da Xələfli kəndi və şəhidlərlə bağlı olan epizodlardır.

Əlbəttə, Qarabağ tarixi çox böyük faciələrlə müşayiət olunur. Özü də təkcə Birinci və İkinci Qarabağ müharibəsi adlandırdığımız XX əsrin sonu və XXI əsrin ikinci onilliyindən sonrakı mərhələ üçün şərhə çəkdiyimiz tarix. Doğrudur, Qarabağ xanlığı öz mövcudluğu dövründə kifayət qədər burada yaşayan etnosların birgə yaşayışını və sülh şəraitində ömür sürmək imkanlarını təmin edib. Ancaq babalarımız düşünməyiblər ki, bir vaxt gələ bilər, cənubi Azərbaycandan, əgər belə demək mümkünsə, İrandan köçürülən ermənilər Qarabağda, Naxçıvanda yerləşdiriləcək və onlar birmənalı şəkildə çox böyük həyasızlıqla yerə, yurda, torpağa iddialar irəli sürəcəklər və bu da Azərbaycan tarixi üçün qanlarla, qadalarla müşayiət olunacaq. Biz Əli Rza Xələflinin "Yaddaş yanğısı" poemasında sözün həqiqi mənasında Qarabağın bütün varlığını özündə əks etdirən Xələfli camaatının doğma yerlər uğrunda savaşlarının əks-sədasını da görürük. Bu çox böyük bir tarixi hadisə idi. Bütövlükdə xalq öz torpağını qorumaq istəyirdi. Bu yöndə Xələflilər də qorxmazlıqla, qəhrəmanlıqla öz yurdlarını, torpaqlarını qorumaq əzmindəydilər. Onlar Qarabağ uğrunda savaşda şəhid olmağı belə ruhən qəbul edirdilər.

Xələflinin "Yaddaş yanğısı" poemasında Xələfli şəhidləri ilə bağlı epziodlar da kifayət qədər təsirli duyğularla poetik mahiyyət kəsb edir:

Hər yara nə qədər dərin olsa da,
Zaman məlhəm olar, dövran sağaldar;
Şəhid oğulların dağı qalsa da,
Yaddaş adlarına mehrab ucaldar.

Burda qələmimin qəmi dillənir,
Şəhidlər adına salamlarım var;
Vətən dağlarında sözüm güllənir,
Qırmızı çiçəkli bir baharım var.

Seyid Əli qəlbin odu, atəşi,
Kəlbəcər dağları yaddan çıxarmaz;
Yusiflə Məhiyyədin... acı gərdişi,
Tarix başdan yazar, addan çıxarmaz.

Xurşidin, Xıdırın şəhidlik taxtı,
Könlümdə ucadır, söz-söz bəzənər;
İgid oğulların zamanı, vaxtı,
Tarix kitabında köz-köz bəzənər.

Bu lirik və həm də çox yanğılı bəndlərdə adlar çəkilir. Yəqin ki, poemanın bu hissələrini oxuyan hər hansı bir Xələfli sakini öz kəndinin doğma övladı olan Əli Rza Xələflinin "Yaddaş yanğısı" əsərini yaradarkən hansı göynəmlərlə, hansı ağrılarla yaşadığını kifayət qədər aydınlığı ilə hiss edə bilər, duya bilər.

Əsərin məzmunundan və həm də Ə.R.Xələflinin "Bir Xələfli var imiş" poemasına verilən izahlardan yaddaşımıza gətirə bilərik ki, bu obrazlar hansı mənəvi gücdə olublar. Seyid Əli zabit olub. Kəlbəcər uğrunda gedən döyüşlərdə həlak olub. Yusif və Məhiyyəddin iki qardaşdırlar. Yusif qəhrəmanlığı ilə, cəsarəti ilə indi də tez-tez xatırlanır. Bütün bunlar göstərir ki, Xələflilər Qarabağ uğrunda savaşa çox böyük cəsarət və mənəvi güclə başlayıblar.

Əsərdən təqdim olunan bəndlər əsasında iki qəhrəmanın da adını diqqətə çəkmək istərdik. Xurşud və Xıdır. Bu gənclər də Xələfli sakinləridir, özü də əmioğludurlar. Qarabağ uğrunda savaşda çox böyük mərdlik və qəhrəmanlıq göstəriblər. Doğru olaraq Əli Rza Xələfli Xurşud Əsgəroğlunun, Xıdır İsmayıloğlunun adlarını nəinki bu poemada, eləcə də digər əsərlərində fəxarətlə xatırlayır.

Əsərin bu hissəsində digər şəhid qəhrəmanların da adları xatırlanır. Ümumiyyətlə, dağ kəndlərinin bir-biri ilə qovuşuq mühitdə pərvərişi hər birimizə məlumdur. Xələfli kəndinə qonşu olan Qərər kəndi də "Yaddaş yanğısı" əsərində xatırlanır. Eləcə də, Xələfli camaatının yaşadığı ikinci bir Xələfli kəndi də var. Bu da Xələfli stansiyası adlanırdı. Həmin kənddə iki kənd - Xudayarlı və Xələfli kəndlərinin camaatı birləşmişdi. Biz həmin kənddən Azər Məhəmməd oğlu Vəliyevin də adına rast gəlirik.

Onu da qeyd edim ki, "Bir Xələfli var imiş" poemasında hələ əvvəllər Ə.Xələfli Qaçay Baxışoğlu və Azər Vəliyev haqqında ətraflı və əhatəli məlumat verir. Biz də "Yaddaş yanğısı" poemasının ən təsirli motivləri kimi Qarabağ savaşının qanlı-qadalı tarixini xatırlamalı oluruq.

Qaçay Baxışoğlu, yaşayar adı,
Çat verdi ürəyi Sur döyüşündə;
Şəhidlik yolunun itməz qan dadı,
Ruhu uyusa da nur döyüşündə.

Hər oğul bir yurdun gülü, qönçəsi,
Azər də Dirinin çiçəyi idi;
Bir gözəl qəlbinin sevda bircəsi,
Yaz ağzı bənövşə ləçəyi idi.

Bundan sonra müəllifin müharibə canilərinə nifrət aşılayacaq duyğularını əks etdirən misralar gəlir. Oğlu şəhid olan ananın yaşadığı hisslər, duyğular oxucu mənəviyyatında ittihama çevrilir. Qəddarlar üçün, vandallar üçün sanki bu ittihamlar məhkəmə hökmü kimi səslənir. Müəllif doğru deyir ki, cəbhədə atılan hər bir güllə bir ana ürəyinə dəyir. Bunu hələ tarixən Nizamidən üzü bəri böyük sənət adamlarının hamısı təkrar-təkrar deyiblər. Bir oğulun ölümü ananın ürəyinə dəyən güllənin sədası kimi yaddaşlarda əks-səda verir.

İnsafən, bundan sonrakı ayrı-ayrı bəndlərinin hər birində biz insan mənəviyyatını silkələyən bədii obrazlara rast gəlirik. Bunu sözlə ifadə etmək çox vaxt çətin olur. Amma müəllif poeziyanın dili ilə görün necə yanğı ilə sözə gətirir.

Cəbhədə əsgərə dəyən hər güllə,
Bir ana qəlbindən, canından keçər.
Övladını vursan çiçəklə, güllə,
Qəzəbi ananın qanından keçər.

Oğul yanğısıyla dünyadna köçən,
Hər şəhid anası özü şəhiddir.
Dərdi yanğısına mey bilib içən
"Ay oğul" ahında sözü şəhiddir.

Tikilər şəhərlər, qurular kəndlər,
Vətənə bir yeni tarix yazılar;
Arxlara su gələr, çəkilər bəndlər,
Qədim Qarabağda yenə yaz olar.

Bütün ağrılı-acılı motivlərin hamısını dinləmək asandır. Yəni sözə çevrilərək oxunmağını dinləmək asandır. Amma bu ağrıları bilavasitə şahid kimi yaşamaq daha çətindir. Əsas odur ki, tarix özünün qanunauyğun axarına qayıdıb. Qarabağ başdan-başa azad edilib. Bütün vandallar sözün həqiqi mənasında öz günahlarını, cinayətlərini təzədən dərk etmək məcburiyyətində qalıblar. Bütün bunlar az məsələ deyil. Yaddaş göstərir ki, tarixdə heç nə əvəzsiz olmur.

***

Beləliklə, poemanın "Baxtıma kitab açdım" hissəsinin daha bir mərhələsi burada başa çatır. Kədərli əhval xaraba yurdun özü ilə dilləşmələr göstərir ki, insan yeri gələndə daşı da, torpağı da, lap qurumuş bir budağı da bütün canlılığı ilə görə bilər, onunla təmas qura bilər. Onunla doğmalıqla ünsiyyət yaradır.

Həyatın elə qəribəlikləri var ki, bunu yalnız o qeyri-adilikləri öz həyatlarında yaşamış olanlar görə bilər.

Yaddaş sahibinin düşüncələri gördüyü doğma yerlərin təsiri ilə daha da aydınlanır. Elə bil ki, onun varlığına köçmüş olan dumanlar dağılır. İnsan dumanlıqlardan keçəndə sanki bütün çətinlikləri arxada qoymuş kimi olur. Beləliklə, həyatın ağrı-acıları ilə otuz il üz-üzə qalmış yaddaş sahibi nəhayət ki, aradakı həsrət odlarını ayrılıq yanğılarını ayaqlayıb keçə bilir. Hər bir həsrətin sonu vüsalla bitirsə, bu, həyatın daha yaşarı, daha gözəl olmağına ən yaxşı sübutdur.

Hansı qaranlıq var ki, onun sabahı açıq olmaya, işıq gəlməyə, hansı bağlı qapı var ki, nə vaxtsa açılmaya. Vətəni, torpağı, yurdu qəsb etmiş, yağmalamış düşmən də axır ki, açılan səhərin aydın işıqları altında bütün eybəcərliyi ilə göründü və öz cəzasını aldı.

**27.11.2023**